**Bərdədə “Ağ Saray” şadlıq sarayında keçirilən yoxlamaya dair məlumat**

**(9 fevral 2026)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Bərdə rayonunun Kətəlparaq kəndində fəaliyyət göstərən, Ağayev İsmayıl Mirağa oğluna məxsus “Ağ Saray” şadlıq sarayında yoxlama keçirib.
Baxış zamanı şadlıq sarayında etiket məlumatları olmayan qida məhsulunun istehlaka təqdim edildiyi aşkarlanıb. Həmçinin sanitar-gigiyenik və sanitar-texniki tələblərin pozulduğu müəyyən edilib.
Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.